# Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin anadan olmasının 140 illiyi münasibətilə müsabiqə keçirilir

Mədəniyyət Nazirliyi Azərbaycan Bəstəkarlar İttifaqı ilə birgə "Dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyinə həsr olunmuş musiqi tarixi və musiqi nəzəriyyəsi sahələrində musiqişünaslıq üzrə" respublika müsabiqəsi keçirir.




Nazirlikdən bildirilib ki, müsabiqənin keçirilməsində əsas məqsəd Azərbaycan peşəkar musiqisinin banisi, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin zəngin irsi ilə bağlı yüksək elmi meyarlara cavab verən yeni tədqiqat işlərinin aşkar edilməsidir.

Müsabiqədə birinci yerin qalibinə 3000 manat, ikinci yerin sahibinə 2000 manat, üçüncü yerə layiq görülən namizədə isə 1000 manat pul mükafatı təqdim olunacaq.

Azərbaycan.- 2025.- 31 yanvar (№21).- S.15.